**UOT: 069.01**
**UOT: 338.48**
https://doi.org/10.59849/2409-4838.2025.2.45

# MƏDƏNİ-DƏRKETMƏ TURİZMİNİN İNKİŞAFINDA BƏLƏDİYYƏLƏRİN ROLU (MUZEYŞÜNASLIQ KONTEKSTİNDƏ)

**Nəzmin Rüstəm qızı Cəfərova*, Cəmil Ənvər oğlu Tağıyev**
Azərbaycan Milli Elmlər Akademiyası, Bakı, Azərbaycan
*nazminjafarova@gmail.com

*Ölkələrin iqtisadi inkişafında turizm sektoru xüsusi əhəmiyyətə malikdir. Turizm gəlirləri ölkələrdə iqtisadi artıma müsbət təsir edir. Azərbaycanda da kreativ iqtisadiyyatın inkişafı qarşımızda duran prioritet məsələlərdəndir. Kreativ iqtisadiyyatın formalaşması bir sıra digər sahələrlə yanaşı turizm sektorunun inkişafı ilə sıx bağlıdır. Turizm potensialının səmərəli istifadəsi isə digər məsələlərlə yanaşı muzeylərin dövrün tələblərinə uyğun fəaliyyəti ilə əlaqədardır.*

*Məlumdur ki, müxtəlif şəhərlərə gələn turistlər digər məkanlarla yanaşı burada fəaliyyət göstərən muzeylərə də üz tutur. Ümumiyyətlə, muzey funksiyalarının genişlənməsi, bu müəssisələrin müasir cəmiyyətlərin həyatında fəal iştirakı, biliklərin həm toplanması, həm də yaranmasında muzeylərin bilavasitə iştirakı bu müəssisələrin kreativ sənayelərlə sıx təmasına geniş imkanlar yaradır. Yeni muzeylərin yaradılması tarixən özünü doğruldur və həm turizm və iqtisadiyyatın inkişafı, həm də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından aktual və məqsədəuyğundur.*

*Respublikada muzey quruculuğunun inkişafı, ölkə muzeylərinin işində müasir texnologiyaların geniş tətbiqi, muzeylər tərəfindən insanların maarifləndirilməsinə yönələn layihələrin həyata keçirilməsi, mədəni asudə vaxtın təmin edilməsi və eyni zamanda əlavə maliyyə vəsaitinin əldə olunması – bütün bu məsələlər xüsusi aktuallıq kəsb edir.*

***Açar sözlər:*** *kreativ iqtisadiyyat, turizm, mədəni-dərketmə turizmi, yerli özünüidarəetmə, bələdiyyələr.*

## GİRİŞ

Dünyanın digər ölkələri kimi Azərbaycan da illərdir ki, postneft dövrünə qədəm qoyub. Belə ki, respublikanın gələcək inkişafı təbii sərvətlərin istismarından daha çox kənd təsərrüfatı və qeyri-neft sənayesi, elm, texnika, turizm və başqa sahələrin inkişafından asılıdır. Sadaladığımız bütün istiqamətlər bu və ya digər dərəcədə məhz elmi biliklərə əsaslanır. Buna görə də elmi nailiyyətlər, aparılan tədqiqat və təcrübələrin nəticələri haqqında məlumatların geniş ictimaiyyətə çatdırılması böyük əhəmiyyət və aktuallıq kəsb edir. Muzeylər bu işdə mühüm rol oynayır.

**Ədəbiyyat araşdırması.** Turizmin ölkələrin iqtisadi artımında yeri qloballaşmanın da təsirilə artmaqdadır. Ona görə də elmi ədəbiyyatlarda bu mövzuda müxtəlif tədqiqatlar mövcuddur.

Emekli “Coğrafiya, mədəniyyət və turizm: Mədəni turizm” adlı tədqiqatında coğrafiya, mədəniyyət və turizmin arasındakı münasibətlərin güclü olduğu və bu münasibətlərin məhsullarından birinin mədəni turizm təşkil etdiyi qənaətinə gəlmişdir [13, s. 57].

Di Laskio və digər alimlərin İtaliyanın 52 əyalətindən aylıq müşahidə nəticələrinin panel veri analizi zamanı məlum olmuşdur ki, qədim incəsənət nümunələrinin sərgilənməsi turist axınına müsbət təsir edir [18, s. 536].

Okuyucu və Somuncunun Türkiyədə Osmaneli ilçə mərkəzində apardığı anket sorğusu nəticəsində yerli sakinlərin turizm barədə yetərli məlumat və təcrübəyə sahib olmamaları, anketdə iştirak edənlərdən turizm fəaliyyətləri zamanı əl işləri düzəldib onların marketinqini apararaq (29.5%), turizm təsislərində çalışaraq (25.9%), kənd təsərrüfatı məhsullarının marketinqi ilə məşğul olaraq turizmə dəstək ola biləcəklərini bildiriblər [15, s. 50].

Selimi və digər alimlər birləşdirilmiş OLS modeli, sabit effektlər modeli, təsadüfi effektlər modeli və Hausman Taylor IV modeli kimi panel məlumatlarına (1998-2014-cü illərdən) əsaslanan bir sıra reqressiya modelləri həyata keçirərək qənaətə gəliblər ki, bütün modellərin nəticələri Qərbi Balkan ölkələrində turizm və iqtisadi artım arasında müsbət və statistik əhəmiyyətli əlaqəni göstərir [23, s. 24-25].

Pekerşen və digər alimlər Türkiyədə Cumalıkızık kəndində yaşayan yerli sakinlərin turizm, mədəni miras turizmi və mədəni miras turizminin qaynaqlarını qorumağa dair düşüncələrini öyrənmək üçün anket sorğusu aparıblar. Sorğunun nəticələrinə görə, yerli sakinlərin 53.8%-i turizm sektorunda ya çalışır, ya da pul qazanır və turizmin öz bərabərində sektorun inkişafı ilə iş imkanlarının daha da artacağını, sosial və mədəni cəhətdən fəaliyyətlərin də artıracağını düşünürlər [16, s. 363].

Erkılıçın Rizədə 480 nəfər arasında keçirdiyi anket sorğusuna görə, insanlar turizmi yerli sakinlərin yaşam keyfiyyətini yüksəldən, mədəni fəaliyyətlər sahəsində irəliləyişə səbəb olan, iqtisadi qazanc gətirən, yerli iqtisadiyyatı dəstəkləyən, regiona daha çox sərmaye cəlb edən amil hesab edirlər [14, s. 79].

Akpınar və Koç tədqiqatlarında SWOT analzindən istifadə edərək Kapadokya turizmini tədqiq ediblər və güclü, zəif yanlarını müəyyənləşdiriblər. Çox çeşdili turizm fəaliyyətlərinin olması, balon turizminin gerçəkləşdirilməsi, keyfiyyətli universitet və institutların olması, turizm fəaliyyətlərinin bütün ilboyu davam etməsi və s. güclü tərəflər kimi göstərilib. Ən zəif yönləri isə infrastruktur problemləri, marketinqin zəif aparılması, bahalılıq və s. kimi müəyyənləşdirilib [11, s. 330].

Sayın tədqiqatında toplum təməlli turizmin uğurunda yerli idarəetmənin və sakinlərin üzərinə önəmli rollar düşdüyü qənaətinə gəlmişdir. Sayına görə, yerli idarəetmədən dayanıqlı turizm üçün reklam, planlama fəaliyyətləri, təbii və mədəni qaynaqların qorunması, ətraf mühiti qoruma, sosial və mədəni tədbirlər təşkil etmək kimi vəzifələrin icrası gözlənilməkdədir [17, s. 14].

Beləliklə, yuxarıda qeyd olunan məlumatları ümumiləşdirərək belə qənaətə gəlirik ki, son illər turizmin iqtisadiyyatda payı artmaqdadır. Bununla belə yerli əhalinin turizmə yanaşması dəyişir, insanlar bu sahənin iqtisadi gəlirlərin və sosial rifahın artımında get-gedə daha da böyük yer tutduğunu anlayırlar. Belə olduğu halda turizm sahəsinin inkişafında yerli idarəetmə orqanlarının da rolu genişlənməli, onların bu istiqamətdə səlahiyyətləri və buna uyğun olaraq vəzifələri artırılmalıdır.

## ƏSAS HİSSƏ

**Mədəni irs və turizm.** Ölkələrin iqtisadi inkişafında turizm sektorunun xüsusi yeri var. Alimlər belə bir qənaətə gəlib ki, turistləri cəlb etmək potensialına malik obyektlər və inkişaf etmiş infrastruktur əraziyə turistlərin cəlb olunması üçün zəruri amillər olsa da, digər şərtlər də mütləq yerinə yetirilməlidir. Müasir turistin maraqları təəssüratlar yaradan əşyalara (“Soft”) yönəlir, infrastruktur (“Hard”) isə təəssüratları yaradan prosesin təminatçısı qismində çıxış edir [27, s. 117].

Tədqiqatçıların fikrincə, turizm xidmətlərinin eksklüzivliyi və müxtəlifliyi, bu xidmətlərin mədəni-dərketmə turizm obyektləri və ya hadisələri qismində təbliği turizm bazarının həcmini genişləndirir. Regionlarda turizmin inkişafı yerli turizm xidmətlərinin həqiqiliyi və unikallığı, turistlərin yerli mədəniyyətlərlə sıx təması üçün yaradılan imkanlarla bilavasitə əlaqədardır. Bu tendensiyalar ərazinin turistlər üçün cəlbedici olmasını dövlət və ya regional hakimiyyət orqanlarından daha çox yerli özünüidarəetmə orqanlarının fəaliyyətindən asılı olduğunu şərtləndirir. Belə ki, birinci qeyd etdiklərimiz turizm sahəsinin fəaliyyətinin baza, təməl əsaslarını möhkəmləndirirsə, yerli özünüidarəetmə orqanları müxtəlif sosial qrupların gözləntilərini doğruldan rəqabətqabiliyyətli, differensial turizm məhsulunun formalaşmasını təmin edir [28, s. 2012].

Turizmin inkişafı müxtəlif zövqlərə malik insanlara əsaslanır. Ona görə də turizmin dayanıqlı inkişafı fərqli zövqlərə xitab edən istiqamətlərə ayrılır. Ölkələrin sahib olduğu mədəni, tarixi mirası iqtisadi fayda əldə etməyə imkan verir. Qloballaşma insanların fərqli mədəniyyətləri görməsi, öyrənməsinə təsir edir və beynəlxalq turizmin inkişafında rol oynayır. Fərqli mədəniyyətə malik ölkələrin daha çox turist cəlb olunması, mədəni irsin qorunması üçün mədəni irsin turistik fəaliyyətlərlə

təqdimatını həyata keçirirlər. Beləliklə, mədəni turizmin inkişafı üçün zəmin yaranmış olur. Feycens mədəni turizmi aşağıdakı kimi qruplaşdırır (Cədvəl).

**Cədvəl**

Mədəni turizmin kateqoriyaları [19, s. 57].

| **Kateqoriya** | **Nümunə** |
|---|---|
| Yüksək, institusionallaşdırılmış mədəniyyət | Muzeylər, sərgilər, təsviri sənətlər, tarixi yerlər, teatr, ifaçılıq sənəti, ədəbiyyat, elm və texnologiya mərkəzləri |
| Xalq, populyar mədəniyyət | Film, əyləncə, idman, kütləvi informasiya vasitələri, alış-veriş, tədbirlər, yemək, məhsul, sənətkarlıq, adət-ənənələr |
| Etnik simvollar | Təhsil, nəqliyyat, din, geyim, dil, iş nümunələri |

Cədvəldən də göründüyü kimi muzeylərə, sərgilərə, tarixi yerlərə və.s ziyarətlər yüksək mədəniyyət amili olaraq ifadə edilir. Tarixi yerlərə, mədəni irsə olan maraq getdikcə artmaqdadır. İnnovasiya və texnologiyaların sürətli inkişafı nəticəsində insanların marağına uyğun yerlər və tədbirlər haqqında məlumat almaq asanlaşır. Məlumat əldə etmək istəyənlər üçün ölkələrin sahib olduğu mədəni irs barədə informasiyalar əlçatan olmalıdır. Bunun üçün mədəni turizmin mənbələri üzrə məlumatlar sistemləşdirilir. Svabruka görə, mədəni turizmin mənbələrinə dini yerlər (məscidlər, kilsələr, məbədlər, kafedrallar), dil (yerli dominant dil, azlığın və regiona xas olan dil, dil məktəbləri), sənaye və ticarət (işgüzar səfərlər, məşhur alış-veriş mağazaları, bazarlar və.s), incəsənət (incəsənət qalereyaları, teatrlar), memarlıq üslubu, festivallar və xüsusi tədbirlər (folklor, ifaçılıq sənəti, idman tədbirləri, xüsusi marağa uyğun tədbirlər), ənənəvi əl işləri, miras (muzeylər və tarixi mərkəzlər, qalalar, malikanələr, qədim abidələr, tarixi bağlar, landşaft bağları, tarixi kəndlər), idman və istirahət fəaliyyətləri (iştirakçılar, tamaşaçılar, ənənəvi oyun və idman), məşhur insanlar və tarixi hadisələr, ənənəvi yemək və içkilər, müasir məşhur mədəniyyət (filmlər, yerli televiziyalar), tematik səfərlər və səyahət proqramları) və xüsusi maraq səfərləri aiddir [12, s. 36].

Beləliklə, iqtisadçı mütəxəssislərin də qeyd etdiyi kimi, "qlobal dünyada ölkələrin sahib olduqları iqtisadi rifahı qorumaq, dayanıqlı iqtisadi artıma nail olmaq üçün ixracatın inkişafına xüsusi əhəmiyyət verirlər... məhdud məhsul üzrə ixracatda ixtisaslaşmaq dünya bazarında dalğalanmalarla ölkə iqtisadiyyatına zərər verir. Ona görə də ölkələrin ixrac məhsul səbətini genişləndirməsi zərurəti yaranır" [6, s. 28, 8, 9]. Müasir reallıqları nəzərə alaraq, bu səbətə mütləq şəkildə turizm məhsulları daxil edilməlidir.

**Turizmin inkişafında bələdiyyələrin rolu.** Yerli özünüidarəetmə orqanlarının turizmin inkişafı üzrə fəaliyyəti turizm infrastrukturuna sərmayelərin cəlb olunması, ərazinin brendləşdirilməsi və marketinqi, əhalinin bu fəaliyyətə cəlb edilməsi, turizm və qonaqpərvərlik sahəsində sahibkarlıq təşəbbüslərinin stimullaşdırılması kimi istiqamətləri əhatə etməlidir [25]. Sadalanan mürəkkəb və əhatəli məsələləri həll etmək üçün bələdiyyə institutlarının maliyyə, kadr və təşkilati resursları olmalıdır.

Bələdiyyələrin mədəni-dərketmə turizminin inkişafında özünəməxsus yeri var. Yerli sakinlər arasında davamlı turizmin inkişafı üçün maarifləndirmə, bölgəyə xas məhsullara uyğun muzey işinin aparılmasında yaxından iştirak və s. bələdiyyələri prosesin mühüm aparıcı qüvvəsinə çevirə bilər. Nəzərə almalıyıq ki, hazırda muzeylər baş verən hadisələr haqqında məlumatların toplanması, tədqiqi və nümayişi, tədris və tərbiyyə prosesində bilavasitə iştirak, rekreasiya, kommunikasiya və digər sosial funksiyaları yerinə yetirir. Bələdiyyələr tərəfindən reallaşdırıla biləcək təşəbbüslər turist axını yaratmaqla həm qurumların gəlirlərinin artmasına səbəb olacaq, həm də regionların inkişafı üçün alternativ gəlir mənbələri formalaşdıracaq.

Dünya təcrübəsinə əsaslanaraq respublikamızda da dayanıqlı və sosial məsuliyyətli turizmin inkişafına böyük önəm verilir. Dayanıqlı turizmin məqsədi yerli icmaların maraqlarına və ekoloji imkanlara əsaslanaraq daha səmərəli və humanist fəaliyyətin təşkilindən ibarətdir. Sosial məsuliy-

yətli turizm də insana səyahət zamanı getdiyi yerin dayanıqlı inkişafına real töhfə vermək imkanı bəxş edir, təbiətin qorunmasını təmin edir, regionun sosial və iqtisadi inkişafına təkan verir, tarixi-mədəni irsə, ətraf mühitə və ənənələrə qarşı hörmət hissi aşılayır.

Bələdiyyələrin turizmin inkişafı sahəsində fəaliyyətini aydınlaşdırmaq üçün bu qurumların işini tənzimləyən hüquqi sənədlərə nəzər yetirmək mütləqdir. *Azərbaycan Respublikasının Konstitusiyasının* 144-cü Maddəsində bələdiyyələrin səlahiyyətlərinə 7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının, 8) yerli iqtisadi inkişaf proqramlarının və 9) yerli ekoloji proqramların qəbul və icra edilməsi daxildir. Həmçinin qeyd olunur ki, "Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər" [1].

*Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununun* müvafiq maddələrində bu qurumlar tərəfindən həyata keçirilən yerli sosial müdafiə və sosial inkişaf proqramlarının sahələri arasında mədəniyyət sahəsi, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması da qeyd olunur. Həmçinin yerli iqtisadi inkişaf və ekoloji proqramların həyata keçirilməsi də nəzərdə tutulur [3]. Hesab edirik ki, bura müasir reallıqları və çağırışları nəzərə alaraq ayrı bəndlə turizm sahəsi də daxil edilməlidir.

*Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanununun* 7-ci Maddəsində yerli büdcənin gəlirlərini formalaşdıran bəzi bəndlərin (məsələn, kurort və mehmanxana rüsumunun və s.) turizm sahəsinə aid olması [2] bir daha turizmin əhəmiyyətini və mövcud qanunvericilikdə bu sahə ilə bağlı boşluqların aradan qaldırılması məsələsini aktual edir.

Boşluqlar həmçinin, *Turizm haqqında Qanunda* [10] da aradan qaldırılmalıdır.

**Mədəni-dərketmə turizmi, muzeylər və bələdiyyələr.** Mədəni-dərketmə turizminin xüsusiyyətlərini nəzərə alaraq vurğulamalıyıq ki, onun mühüm tərkib hissəsi olan muzeylərin zamanın tələblərinə uyğun inkişafı və yaranan reallıqlara cavab verən yeni muzeylərin yaradılması biliklər cəmiyyəti və iqtisadiyyatının formalaşmasında əhəmiyyətli rol oynayacaq.

Hazırda mədəni-dərketmə turizmi dünyanın inkişaf etmiş ölkələrində iqtisadiyyatın gəlirlərinə görə ikinci və yatırılan sərmayelərə görə birinci sektorudur. Bu turizm növünün ayrılmaz hissəsi muzeylərdir. Muzey menecmenti və marketinqinə dair həyata keçirilən tədbirlər dünyada geniş vüsət alıb. Ölkə muzeyləri də bu prosesə mütləq qoşulmalıdır. Həmçinin muzey ekspozisiyaları və sərgiləri insanlar üçün maraqlı formada, xüsusilə əyanilik və interaktivlik prinsiplərinə uyğun qurulmalıdır. Postsovet məkanında, o cümlədən Azərbaycanda fəaliyyət göstərən bütün muzeylər "muzey muzey əməkdaşları üçündür" konsepsiyasından imtina edərək geniş ictimaiyyət üçün sözün əsl mənasında açıq və əlçatan olsun. PR-fəaliyyətinin düzgün həyata keçirilməsi və reklam, uşaq və böyüklər üçün müxtəlif mövzuları əlatə edən sərgi və proqramların təşkili, habelə bütün təbəqələr üçün əlçatan qiymətlər – bütün bu məsələlər züsusi diqqət tələb edir [20, s. 175].

Məlumdur ki, müxtəlif ölkələrə gələn turistlər digər məkanlarla yanaşı burada fəaliyyət göstərən muzeylərə də üz tutur. Ümumiyyətlə, muzey funksiyalarının genişlənməsi, bu müəssisələrin müasir cəmiyyətlərin həyatında fəal iştirakı, biliklərin həm toplanması, həm də yaranmasında muzeylərin bilavasitə iştirakı bu müəssisələrin kreativ sənayelərlə sıx təmasına geniş imkanlar yaradır.

Alimlər qeyd edir ki, "kreativ sənayelər iqtisadi sektorda yeni ideyalar və müasir texnologiyaların qaynağıdır. Yaradıcı komponent muzey kolleksiyalarını tamamilə yeni şəkildə təqdim etməyə imkan yaradır. Məzmundan başqa kreativ sənayelər beynəlxalq bazara uyğun məhsul və xidmət təqdim edir, bu isə muzeyin ümumdünya mədəni məkanda tanınmasına və rəqabətliliyinin artmasına təkan verir" [24, s. 67].

Bələdiyyələrin mədəni-dərketmə turizminin inkişafı sahəsində həyata keçirə biləcəyi layihələrdən danışaraq biz, ekomuzeylərin fəaliyyətini vurğulamaq istəyirik. Yenə də qanunvericilikdəki boşluqlar haqqında danışmalıyıq: respublikanın *Muzeylər haqqında Qanununda* [7] ekomuzeylərin hüquqi statusu belə mövcud deyil. Halbuki zəngin mədəni və təbii irsi ilə seçilən respublikamızın müxtəlif bölgələrində mütləq ekomuzey və "yaşıl yollar" (Greenways) yaradılmalıdır. Ekomuzeylər həm turizmin inkişafı, həm də yerli əhalinin sosial, iqtisadi, mədəni problemlərinin həllinə

yönələn təşəbbüslərdir. Təsadüfi deyil ki, ekomuzey konsepsiyasının müəllifi Jorj Anri Rivyer ekomuzeyləri həm “məkan, hərəkət və zaman” muzeyləri, həmçinin də “icmanın özünü tanımaq üçün baxdığı güzgü və başqalarının onu tanıması üçün baxdıqları pəncərə” adlandırıb [29, s. 313].

Ekomuzeylərin əsas prinsiplərindən biri əhalinin fəal iştirakçı qismində təmsil olunmasıdır. Ekomuzeylər əhali və yerli hakimiyyət orqanları tərəfindən birgə planlaşdırılır, yaradılır və istifadə edilir. Hakimiyyət orqanları bu prosesdə mütəxəssislərin və lazımi, o cümlədən maddi resursların ayrılması ilə iştirak edir. Azərbaycanın potensialını nəzərə alaraq ölkəmizdə sözügedən məkanların, yolların yaradılması olduqca aktual bir məsələdir [5, s. 103-104].

Ekomuzeyləri kənd və qəsəbə bələdiyyələrinə aid ediriksə şəhər bələdiyyələrinin də muzeylərin inkişafında özünəməxsus yeri var. Məsələn, dünya təcrübəsinə nəzər salsaq bir çox şəhər tarixi muzeyləri (Parisdəki Karnavale muzeyi, Varşava tarixi muzeyi və s.) məhz şəhər bələdiyyələrinin təşəbbüsü ilə yaradılıb. Həmçinin şəhər tarixi muzeylərində vaxtaşırı bələdiyyələrə həsr olunan sərgi və tədbirlər keçirilir, yəni bələdiyyələr bu növ muzeylərlə əməkdaşlıq edir. Azərbaycanda da bu təcrübələrdən yararlanaraq müvafiq tədbirlərin həyata keçirilməsi həm maarifçilik baxımından, həm də mədəni-dərketmə turizmin və iqtisadiyyatın inkişafı baxımından əlverişli və məqsədəuyğundur. Artıq Bakı [4], Şuşa [21] və Naxçıvan [26] şəhərlərinin tarixi muzeylərinin ilkin konsepsiyaları hazırlanaraq ictimaiyyətə təqdim olunub. Turizm və muzey işinin inkişafında bələdiyyələrin rolu ilə bağlı məruzə həmçinin 2023-cü ildə “Bələdiyyələrin tarixi” I Beynəlxalq Gəgəli Simpoziumunda təqdim edilib [22]. Ümid edirik ki, irəli sürülən təkliflər gələcək fəaliyyət zamanı nəzərə alınacaq və ölkəmizin iqtisadi və mədəni inkişafına xidmət edəcək.

## YEKUN NƏTİCƏ

Beləliklə, yerli özünüidarəetmə qurumları müxtəlif layihələri həyata keçirilməklə və ya müvafiq layihələrdə iştirak etməklə turizmin bir çox növünün, o cümlədən mədəni-dərketmə turizmin inkişafına təkan verə bilər.

Fikrimizcə, biliklər cəmiyyəti və iqtisadiyyatının inkişaf etdiyi dövrümüzün reallıqlarını nəzərə alaraq bütün bu məsələlər müvafiq qanunvericilikdə öz əksini tapmalıdır ki, bələdiyyələrin turizm sahəsində səlahiyyətləri genişlənsin.

Yuxarıda sadalananları nəzərə alaraq əminliklə qeyd edə bilərik ki, mədəni-dərketmə turizminin və ümumilikdə kreativ iqtisadiyyatın inkişafında muzeylərin rolu danılmazdır. Düşünürük ki, dünya təcrübəsinə əsaslanaraq, bələdiyyələr Azərbaycanda şəhər tarixi muzeyləri, ekomuzeylər və “Yaşıl yollar”ın yaranması prosesində bilavasitə təşəbbüskar və iştirakçı qismində çıxış edə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası (1995). [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897
2. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu (1999). [Elektron resurs]. URL: https://e-qanun.az/framework/5231
3. https://e-qanun.az/framework/4770
4. Cəfərova, N. Bakı şəhərinin tarixi muzeyinin konsepsiyası // Filologiya və sənətşünaslıq, – 2021. №1, – s. 265-270.
5. Cəfərova, N. Biliklər cəmiyyətinə doğru addım: ekomuzeylər və “yaşıl yollar”ın yaradılması perspektivləri // Turizm və qonaqpərvərlik tədqiqatları. Bakı: Mütərcim, – 2023. – s. 98-106.
6. Hüseynov, A., Tağıyev, C. Azərbaycanın ixrac məhsul çeşitləndirilməsində qeyri-neft ixracı // Elm və İnnovativ Texnologiyalar Jurnalı, – 2023. №26, – s. 48-56.
7. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu (2000). [Elektron resurs]. URL: https://e-qanun.az/framework/735

8. Tağıyev, C. Azərbaycanda ixracın müasir vəziyyəti və səmərəliliyinin yüksəldilməsi yolları / Magistr dissertasiyası. Bakı, 2023. – 70 s.
9. http://www.economics.com.az/images/fotos/Kitablar/2022/susa_konfrans2022.pdf
10. https://e-qanun.az/framework/49162
11. Akpınar, G., & Koç, H. Kapadokya Turizminin SWOT Analizi ile İncelenmesi ve Bölgede Turizmi Geliştirmek İçin Öneriler. Türk Turizm Araştırmaları Dergisi, – 2023, 7 (2), – s. 316-334.
12. Baykan, E. Kültür turizmi ve turizmin kültürel varlıklar üzerindeki etkileri. Gazi Üniversitesi Ticaret ve Turizm Eğitim Fakültesi Dergisi, – 2007, (2), – s. 30-49.
13. Emekli, G. Coğrafya, kültür ve turizm: kültürel turizm. Ege coğrafya dergisi, – 2006, 15 (1-2), – s. 51-59.
14. Erkılıç, E. Yerel halkın turizm algısı ve turizmin gelişimine yönelik tutumları: Rize örneği. International Journal of Contemporary Tourism Research, – 2019, 3 (1), – s. 66-82.
15. Okuyucu, A., Somuncu, M. Kültürel mirasın korunması ve turizm amaçlı kullanılmasında yerel halkın algı ve tutumlarının belirlenmesi: Osmaneli ilçe merkezi örneği. Ankara Üniversitesi Çevrebilimleri Dergisi, – 2012, 4 (1), – s. 37-52.
16. Pekerşen, Y., Güneş, E., & Seçuk, B. Kültürel Miras Turizmi Değerlerinin Korunması ve Sürdürülebilirliği Kapsamında Yerel Halkın Tutumu: Cumalıkızık Örneği // Türk Turizm Araştırmaları Dergisi, – 2021, 3 (3), – s. 350-368.
17. Sayın, Ç. Toplum Temelli Turizm ve Yerel Yönetimler. Çatalhöyük Uluslararası Turizm ve Sosyal Araştırmalar Dergisi, – 2023, 8 (10), – s. 1-20.
18. Di Lascio, F. M. L., Giannerini, S., Scorcu, A. E., & Candela, G. Cultural tourism and temporary art exhibitions in Italy: A panel data analysis. Statistical Methods & Applications, – 2011, 20, – p. 519-542.
19. Fagence, M. Tourism and Local Society and Culture. Tourism in destination communities / edited by S. Singh, D.J. Timothy, and R.K. Dowling, – 2003.
20. Jafarova, N. Cultural Tourism as an Important Component of Economic Development of the State. 3rd International Conference "Ohrid –Vodici, 2015" "Rethinking the Framework of Interdisciplinary cooperation between Cultural Heritage, Local Economic Development, Tourism and Media", – 2015. – p. 172-176.
21. Jafarova, N. The concept of the Museum of the History of Shusha // İncəsənət və Mədəniyyət problemləri, – 2021, 1 (75). – p. 33-41.
22. Jafarova, N., & Taghiyev, J. The role of municipalities in the development of cultural and educational tourism (In the context of museum studies), – 2023.
23. https://doi.org/10.25103/ijbesar.102.02
24. Батова, К.Ф. Креативные индустрии в музейной сфере как фактор конкурентоспособности музеев Великобритании // Межкультурный диалог в современном мире: материалы IX конференции с международным участием. СПб.: Скифия-принт, – 2021, – с. 66-69.
25. http://ljournal.ru/article/lj2016- 5-4-02.pdf.
26. Джафарова, Н. Перспективы создания Музея истории города Нахчыван // Filologiya və sənətşünaslıq, – 2022. №2, – s. 304-311.
27. Новичков, Н.В. О некоторых аспектах развития туризма как части креативной экономики и экономики впечатлений // Сервис в России и за рубежом, – 2013. №8. – с. 113-121.
28. Фролова, Е.В., Рогач, О.В., Рябова, Т.М. Деятельность муниципальных органов власти по развитию культурно-познавательного туризма: проблемы, ресурсы и новые возможности // Вопросы государственного и муниципального управления, – 2020. №3, – с. 210-228.
29. Юренева, Т.Ю. Музееведение: Учебник для высшей школы / Т.Ю.Юренева. – М.: Академический Проект, – 560 с.

# THE ROLE OF MUNICIPALITIES IN THE DEVELOPMENT OF CULTURAL AND EDUCATIONAL TOURISM (IN THE CONTEXT OF MUSEUM STUDIES)

**N.R. Jafarova, J.A. Taghiyev**

The tourism sector occupies a special place in the economic development of countries worldwide. Tourism revenues have a positive impact on the economic growth of various states. The development of the creative economy in Azerbaijan is one of the priority tasks. Along with other sectors, the formation of the creative economy is closely linked to the development of the tourism sector. In turn, the rational use of tourism potential, along with other industries, is directly connected to the activities of museums in accordance with modern requirements.

It is well known that tourists visiting different cities, along with other attractions, also go to museums operating in these cities. The expansion of museum functions, the active participation of these institutions in the life of modern societies, and their direct involvement in both the accumulation and creation of knowledge create extensive opportunities for close interaction between museums and creative industries. The establishment of new museums has historically proven its value and remains relevant and justified both in terms of tourism and economic development and in conveying the truth about Azerbaijan to the global community.

The development of the museum network in the republic, the widespread use of modern technologies in the activities of museums, the implementation of projects aimed at educating people, providing cultural leisure, and at the same time generating additional income-all these issues are becoming increasingly important.

**Key words:** *creative economy, tourism, cultural and educational tourism, local government, municipalities*

# РОЛЬ МУНИЦИПАЛИТЕТОВ В РАЗВИТИИ КУЛЬТУРНО-ПОЗНАВАТЕЛЬНОГО ТУРИЗМА (В КОНТЕКСТЕ МУЗЕЕВЕДЕНИЯ)

**Н.Р. Джафарова, Дж.А. Тагиев**

Сектор туризма занимает особое место в экономическом развитии стран мира. Доходы от туризма оказывают положительное влияние на рост экономики различных государств. Развитие креативной экономики в Азербайджане является одной из приоритетных задач. Наряду с другими сферами, формирование креативной экономики тесно связано с развитием сектора туризма. В свою очередь, рациональное использование туристического потенциала, наряду с прочими отраслями, напрямую связано с деятельностью музеев в соответствии с требованиями современности.

Известно, что посещающие различные города туристы направляются, наряду с другими достопримечательностями, и в функционирующие в этих городах музеи. Расширение функций музеев, активное участие этих учреждений в жизни современных обществ, непосредственное участие музеев как в накоплении знаний, так и в их создании, создает широкие возможности для тесного взаимодействия этих учреждений с креативными индустриями. Создание новых музеев себя исторически оправдывает, это актуально и целесообразно как с точки зрения развития туризма и экономики, так и с точки зрения донесения правды об Азербайджане до мировой общественности.

Развитие музейной сети в республике, широкое применение современных технологий в деятельности музеев страны, реализация музеями проектов, нацеленных на просвещение людей, обеспечение культурного досуга и, в то же время, получение дополнительного дохода – все эти вопросы обретают особую актуальность.

**Ключевые слова:** *креативная экономика, туризм, культурно-познавательный туризм, местное самоуправление, муниципалитеты*